

# HÜQUQİ DÖVLƏT: İSTİFADƏÇİ BƏLƏDÇİSİ

VENICE COMMISSION
COMMISSION DE VENISE

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# HÜQUQİ DÖVLƏT, DEMOKRATİYA, İNSAN HÜQUQLARI

## Avropa Şurasının üç sütununu təşkil edən qanunun aliliyi, demokratiya və insan hüquqları bir-biri ilə sıx bağlıdır və ayrılmazdır.

- Demokratiya vətəndaşların ictimai qərarların qəbul edilməsində iştirakını təmin edir;
- İnsan hüquqları fərdləri onların azadlıqlarına özbaşına və həddən artıq müdaxilədən qoruyur və insan ləyaqətini təmin edir;
- Qanunun aliliyi ilə idarə edilən dövlət (hüquqi dövlət) ictimai hakimiyyətin həyata keçirilməsinin tənzimlənməsini və nəzarətini təmin edir.

Qanunun aliliyi demokratiyanı təşviq edir, çünki o, ictimai hakimiyyətə sahib olanlar üçün məsuliyyəti təmin edir. Müstəqil və qərəzsiz ədalət mühakiməsi vasitəsilə insan hüquqlarını qoruyur və azlıqları çoxluğun özbaşına qərarlarından qoruyur.

**Bu, niyə vacibdir?**
Aydın qaydaları olmayan dövlət qeyri-sabitlik və özbaşınalığa meyllidir.
Hüquqi dövlət hər kəsin əsas azadlıqlarını qoruyur. Bu, müasir demokratiyaların özülünü təşkil edir.

## Hüquqi dövlət beş əsas prinsipə əsaslanır:

- **Qanunilik** - Qanunlar hər kəsə tətbiq edilir və hakimiyyətə məhdudiyyətlər qoyur.
- **Hüquqi müəyyənlik** - Qanunlar aydın, əlçatan və qabaqcadan görülə biləndir.
- **Hakimiyyətdən sui-istifadənin qarşısının alınması** - Özbaşınalığın qarşısını almaq üçün nəzarət həyata keçirilir.
- **Qanun qarşısında bərabərlik və ayrı-seçkiliyə yol verməmə** - Qanunlar hər kəsi qoruyur və bərabər şəkildə tətbiq edilir, və ayrı-seçkilik qadağandır.
- **Müstəqil və qərəzsiz məhkəməyə çıxış** - Hər kəs məhkəmədə öz hüquqlarını müdafiə edə bilər.

Malta rəssamı Nadin Teuma tərəfindən "Ədalət Xanım" rəsimləri





# QANUNİLİK

## Qanunlar hər kəsə tətbiq edilir və hakimiyyətə məhdudiyyətlər qoyur.

**Qanunun aliliyi ilə idarə edilən bir dövlətdə hakimiyyət və vətəndaşların davranışları demokratik yolla qəbul edilmiş qanunvericiliklə tənzimlənir. İcra hakimiyyəti məhdudiyyət və ya nəzarət olmadan öz hakimiyyətini həyata keçirə və iradəsini tətbiq edə bilməz.**

### Əsas prinsiplər

- Bütün qərarlar qanun çərçivəsində qəbul edilməlidir.
- Qanunlar aydın və şəffaf demokratik prosesə uyğun şəkildə qəbul olunmalıdır.
- Dövlət qurumlarının qərarları müstəqil məhkəmə orqanı tərəfindən nəzərdən keçirilməlidir. Hökumət konstitusiyada müəyyən edilmiş qaydalara riayət etmədən özünə yeni səlahiyyətlər verə bilməz.
- Beynəlxalq konvensiya və müqavilələr, habelə beynəlxalq məhkəmələr tərəfindən qəbul edilmiş qərarlar tətbiq edilməli və onlara riayət edilməlidir.
- Qanun səmərəli şəkildə tətbiq edilməlidir.

**Bu, niyə vacibdir?**
Hakimiyyət qanunvericilik çərçivəsində həyata keçirilməzsə sui-istifadə edilə bilər. Məsələn, hökumət azadlıqları istədiyi kimi məhdudlaşdıra bilər. Demokratik yolla qəbul edilmiş qanunvericiliyin aydınlığı və ona hörmət hamı üçün ədalət və bərabərliyin təminatıdır.



# HÜQUQİ MÜƏYYƏNLIK

## Qanunlar aydın, əlçatan və qabaqcadan görülə biləndir.

**Hüquqi müəyyənlik qanunların aydın, əlçatan və qabaqcadan görülə bilən olmasını və geriyə tətbiq edilməməsini təmin edir. Beləcə hər kəs öz hüquq və vəzifələrini qabaqcadan bilir.**

### Əsas prinsiplər

- Qanunlar və məhkəmə qərarları asanlıqla əlçatan və başa düşülən olmalıdır.
- Qanunlar gözlənilməz şəkildə dəyişməməli və tutarlı olmalıdır.
- Şəxs törədildiyi zaman cinayət və ya hüquq pozuntusu hesab edilməyən bir hərəkətə görə məhkum edilə bilməz.

**Bu, niyə vacibdir?**
Şəxslər inamla hərəkət etmək üçün hüquq və vəzifələrini bilməlidirlər. Qeyri-müəyyən və ya sürətlə dəyişən qanunlar qeyri-müəyyənlik və qeyri-sabitlik yaradır və şəxsləri gözlənilməz sanksiyalarla qarşı-qarşıya qoyur.



# HAKİMİYYƏTDƏN SUİ-İSTİFADƏNİN QARŞISININ ALINMASI

## Özbaşınalığın qarşısını almaq üçün nəzarət həyata keçirilir.

**Məhdudiyyətsiz və nəzarətsiz hakimiyyət ədalətsizliyə gətirib çıxarır. Mütləq hakimiyyətin səbəb olduğu təhlükələrə özbaşına qərarlar, korrupsiya və siyasi repressiyalar daxildir. Məsələn, məhkəmə icazəsi və ya nəzarəti olmadan həddindən artıq nəzarət insan hüquqlarının pozulmasına səbəb ola bilər.**

### Əsas prinsiplər

- Hakimiyyət bölgüsü: güc bir hakimiyyətin əlində cəmləşməməlidir.
- Əsaslandırma öhdəliyi: ictimai qərarlar əsaslandırılmalı və izah edilməlidir.
- Məhkəmə baxışı: bütün ictimai qərarlara müstəqil və qərəzsiz məhkəmələrdə etiraz edilə bilər.

**Bu, niyə vacibdir?**
Nəzarət olmadan hökumət özbaşına qərarlar qəbul edə, rəqiblərini senzura edə və hətta fundamental azadlıqları ləğv edə bilər. Qanunun aliliyi bu cür sui-istifadə hallarının qarşısını almaq məqsədilə təminatlar yaradır.



# QANUN QARŞISINDA BƏRABƏRLİK VƏ AYRI-SEÇKİLİYƏ YOL VERMƏMƏ

## Qanunlar hər kəsi qoruyur və bərabər şəkildə tətbiq edilir, ayrı-seçkilik qadağandır.

**Qanunun aliliyi hər kəsin qanunla müəyyən edilmiş eyni hüquq və vəzifələrə malik olmasını və onlara münasibətdə əsassız fərqlərin olmamasını tələb edir.**

### Qanun qarşısında bərabərlik nə deməkdir?

- Nə qanunda, nə də onun tətbiqində insanlar arasında əsassız fərq qoyulmamalıdır.
- Ayrı-seçkiliyin bütün formalarından qorunmaq lazımdır.
- Eyni hüquq və vəzifələr hər kəs üçün təmin edilməlidir.
- Ayrı-seçkiliyə məruz qalmış hər kəs özünü müdafiə edə bilməlidir.

**Əsas irəliləyişlər - Qadınların səs vermək hüququ nümunəsi**
Avropada qadınlara səs vermək hüququnun verilməsinin gecikməsi tarixi ayrı-seçkilik nümunəsidir. Finlandiya 1906-cı ildə qadınlara səs vermək hüququnu təmin etmiş ilk Avropa ölkəsi olub. Bu, sadəcə 1918-ci ildən sonra digər Avropa ölkələrinə yayılıb və yalnız 1984-cü ildən bəri Avropada universal xarakter daşıyıb. Bu gün qanunun aliliyi yalnız qadınların səs vermək hüququnu qorumur, həm də ayrı-seçkiliyə məruz qalmadan siyasi həyatda fəal iştiraklarını təmin və təşviq edir.



# MÜSTƏQİL VƏ QƏRƏZSİZ MƏHKƏMƏYƏ ÇIXIŞ

## Hər kəs öz hüquqlarını məhkəmədə müdafiə edə bilər

**Müstəqil və qərəzsiz məhkəməyə çıxış insanlara öz hüquqlarını müdafiə etməyə imkan verir. Məsələn, Avropa İnsan Hüquqları Məhkəməsi şəxsin işdən azad edilməsinin, mülkiyyətindən məhrum edilməsinin və ya uşaqları ilə görüşməsinin dayandırılmasının məhkəmədə mübahisələndirilməsinin mümkün olmamasının ərizəçilərin hüquqlarının pozulması olduğuna qərar verib. Bərabər hüquqların təmin edilməsi üçün sürətli və əlçatan ədalət vacibdir.**

### Əsas prinsiplər

- Hər kəsin məhkəməyə müraciət etmək hüququ var və müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli prosesin aparılması hüququna malikdir.
- Hökümlər əlçatan və aydın şəkildə izah olunur.
- Ehtiyacı olanlara hüquqi məsləhət və hüquqi yardım göstərilir.
- Prosedurlar ağlabatan müddətdədir və ucuzdur.
- Məhkəmə qərarları icra edilir.

**Bu, niyə vacibdir?**
Məhkəməyə çıxış olmasaydı haqsızlığa uğramış vətəndaşlar öz hüquqlarını müdafiə edə bilməzdilər. Dövlət müstəqil məhkəmələrə və hər kəs üçün əlçatan olan məhkəmə sisteminə zəmanət verməlidir.


PAX EVAN
TIBI GELI
MAR STA

# HÜQUQUN ALİLİYİ FƏALİYYƏTLƏRLƏ

## Avropa Şurasının Venesiya Komissiyasının rolu

**Venesiya Komissiyası üzv dövlətlərə qanunun aliliyi prinsiplərinin lazımi şəkildə həyata keçirilməsini təmin edən konstitusiya sistemlərinin hazırlanmasına kömək edib. Komissiya həmçinin müəyyən bir ölkədə qanunun aliliyi prinsiplərinin tətbiq səviyyəsini qiymətləndirmək üçün vasitə olan Qanunun aliliyini yoxlama siyahısını təqdim edib.**

### Venesiya Komissiyasının Qanunun aliliyini yoxlama siyahısı

2016-cı ilin Qanunun aliliyini yoxlama siyahısı qanunun aliliyinin əsas prinsipləri olan qanuniliyi, hüquqi müəyyənliyi, sui-istifadə və vəzifə səlahiyyətlərindən sui-istifadənin qarşısının alınmasını , məhkəməyə çıxışı, bərabərliyi və ayrı-seçkilikyin qarşısının alınmasını ətraflı parametr və müvafiq mənbələr ilə meyarlar şəklində təqdim edir.

Yoxlama siyahısından istifadə edərək hökumət, parlament, vətəndaş cəmiyyəti, vətəndaşlar, habelə beynəlxalq təşkilatlar qanunun aliliyi prinsiplərinə hər hansı bir dövlətdə necə hörmət edildiyini dəyərləndirə bilərlər. Beləcə yoxlama siyahısı dövlət fəaliyyətini tələb edən zəif tərəfləri və ya çatışmazlıqları müəyyən etməyə şərait yaradır. Venesiya Komissiyası bu cür zəif tərəfləri və boşluqları aradan qaldırmaq istiqamətində çoxsaylı tövsiyələr verib.

## Biz kimik?

«Hüquq vasitəsilə Demokratiya uğrunda» Venesiya Komissiyası Avropa Şurasının müstəqil ekspertlərdən təşkil edilmiş konstitusiya hüququ üzrə məşvərət orqanıdır.

O, 1990-cı il mayın 10-da italyan alimi Antonio La Perqolanın ideyası əsasında yaradılıb. Berlin divarının sökülməsindən sonra bir çox keçmiş sosialist ölkəsinin demokratik konstitusiya və qanunvericilik qəbul etməsinə və daha sonra Avropa Şurasına üzv olmasına kömək edib.

Bu gün o, üzv dövlətlərə beynəlxalq standartlara uyğun konstitusiya və qanunvericilik islahatlarının hazırlanmasında kömək edir. Komissiyanın tövsiyələrinə riayət edilməsi Avropa İttifaqına üzvlük prosesini asanlaşdırıb.

## Missiya

Tələb əsasında və dövlət orqanları, dövlət qurumları, maraqlı tərəflər və vətəndaş cəmiyyəti ilə inklüziv məsləhətləşmələr prosesi yolu ilə Venesiya Komissiyası xüsusilə seçki və məhkəmə sahələrində konstitusiya və qanunvericilik islahatlarını qiymətləndirir, demokratiya, insan hüquqları və qanunun aliliyi prinsiplərinə hörmət etmək və onları tətbiq etmək, eləcə də səmərəli və güclü idarəetmə sistemlərinin hazırlanması üçün bu islahatların necə təkmilləşdirilməsi ilə bağlı məcburi olmayan tövsiyələr verir.

## Üzv dövlətlər

Venesiya Komissiyasına Avropa Şurasının 46 üzvü və Amerika, Afrika və Asiyadan olan 15 üzv daxildir.

## Niyə Venesiya?

«Hüquq vasitəsilə Demokratiya uğrunda Avropa Komissiyası "Venesiya Komissiyası" adını ilk iclasını keçirdiyi və ildə dörd dəfə görüşməyə davam etdiyi Laqunanın məşhur italyan şəhərindən alıb.

## 1990-2025 - Nailiyyətlər

35 illik mövcudluğu, müstəqilliyi və qərəzsizliyi, peşəkarlığı və inkluziv iş metodları sayəsində Venesiya Komissiyası demokratik konstitusiyaların qəbulunun və qurumların demokratik fəaliyyətinin asanlaşdırılmasına böyük təsir göstərib. Xüsusilə, Komissiya hüquqi dövlət prinsiplərinə uyğunluğun artırılmasına və üzv ölkələrdə hakimiyyətin bölgüsünə və məhkəmə müstəqilliyinin gücləndirilməsinə töhfə verib.

- **1000+**: Konstitusiya və qanunvericilik islahatları ilə bağlı rəy və hesabatların sayı
- **50+**: Komissiyanın köməyi ilə hazırlanmış və ya yenidən nəzərdən keçirilmiş Konstitusiyaların sayı
- **200+**: Onun işinə töhfə vermiş müstəqil hüquqşünasların sayı

**Bu məsələ niyə hamımız üçün vacibdir?**
**Hüququn aliliyi nə deməkdir?**

Sabit və dinc demokratiya.
Azad olan və özbaşınalıqdan qorunan vətəndaşlar.
Daha ədalətli, daha bərabər cəmiyyət.

Rəsmlər: Nadin Teuma

Bütün hüquqlar qorunur.
Bu nəşrin heç bir hissəsi
Kommunikasiyalar Şöbəsinin yazılı
formada ilkin icazəsi olmadan tərcümə
edilə, çap edilə və ya ötürülə bilməz.
(F-67075 Strasbourg Cedex
və ya publishing@coe.int).

Şəkillər © Avropa Şurası

Avropa Şurası tərəfindən nəşr edilib
F-67075 Strasbourg Cedex
**www.coe.int**

© Avropa Şurası, dekabr 2025

**Venesiya Komissiyasının internet səhifəsi**
https://venice.coe.int


BUQUICCHIO

Bu broşüra qanunun aliliyinin vacib prinsiplərini araşdırır; qanunilik, hüquqi əminlik, gücdən sui-istifadəin qarşısının alınması, qanun qarşısında bərabərlik və ədalətə çıxış. Bu prinsiplər demokratiya və insan haqlarının onurğa sütununu təşkil edir, məsuliyyətli idarəetməni, fərdi azadlıqları və cəmiyyətdə ədalətliliyi təmin edir. Avropa Şurasının Venesiya Komissiyasının fəaliyyəti vasitəsilə dövlətlərin bu standartlara necə riayət etdiyini və vətəndaşları özbaşına gücdən necə qoruduğunu dəstəklədiyini öyrənin. Siyasətçi, tələbə və ya təssübkeş vətəndaş olmağınızdan asılı olmayaraq, bu bələdçi qanunun aliliyinin niyə vacib olduğunu və hər gün azadlıqlarımızı necə qoruduğunu göstərir.

AZE

www.coe.int

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 46 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

VENICE COMMISSION
COMMISSION DE VENISE

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE